**AZƏRBAYCAN XALQ PARLAMENTİ**

**AzXP-nin 44-cü İclası**

**Protokol № 44**

Tarix: 13 dekabr 2025-ci il
Başlanma vaxtı: 20:00 (Bakı vaxtı)
İclasın müddəti: 2 saat (faktiki 3 saat)
İcra yeri: Onlayn
Sədr: Cavanşir Xanlarov
Katib: Kəmalə Mehtiyeva

İtirakçı sayı: **45**
Millət vəkili: **42**
Kanal: 1
SK üzvü: 2

İclas Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan edildi.

Sədr Rəyasət Heyəti tərəfindən hazırlanmış gündəliyi səsverməyə çıxardı. Ötən həftə millət vəkili Namizəd Səfərovun həbsinə münasibət və Seçki Komissiyasının üzvü Fikrət Qəhrəmanovun da çıxışları nəzərə alınmaqla iclasın vaxtı uzadılmaqla Gündəlik **34 səs lehinə** və **1 səs əleyhinə** olmaqla qəbul olundu

**GÜNDƏLİK**

1. ″Qarabağa qayıdışla” bağlı narazılıqlar (məruzəçi, millət vəkili Süleyman Məmmədhüseynov)
2. Seçki Komissiyasının fəaliyyətini tənzimləyən sənədlərin müzakirəsi və qəbulu.
3. Cari məsələlərin müzakirəsi

**1-ci məsələ:**

″Qarabağa qayıdışla” bağlı narazılıqlar (Məruzəçi: millət vəkili Süleyman Məmmədhüseynov)

Məruzə dinlənildikdən sonra sədr Cavanşir Xanlarov keçmiş Rəyasət Heyətinin üzvlərinin qanunsuz əməllərini pisləyərək milllət vəkillərinin Parlamentin legitim RH-nin çağırışı ilə təşkil olunan iclaslarda iştirak etməyə çağırış etdi. Sədr nitqində millət vəkillərinə xəbərdarlıq edərək, onlardan qaydalara tabe olmağı tələb etdi.

Məruzə və çıxışdan sonar millət vəkilləri Ənvər Ağamalızadə, Hüseyn Pursüleyman, Zirəddin Abdullayev, Təranə Səfərsoy, Teymur Eminbəyli, Sədaqət Paşayeva, Telman Ələkbərsoy, Rövşən Qəmbər, Nəsrəddin Kərəmov, Sevinc Zülfüqarova, Şakir Məmmədov və Oqtay İskəndərli çıxış edərək hər iki məsələyə münasibət bildirdilər.

**2-ci məsələ:**

Seçki Komissiyanın üzvü Kəmalə Mehtiyeva çıxış edərək Komissiyanın cari il ərzində gördüyü işlər barədə qısa məlumat verdikdən sonra qarşıda duran vəzifələri açıqladı.

İlk olaraq Azərbaycan Xalq Parlamentinə (AzXP) Seçkilərinin Keçirilməsi Qaydaları müzakirə edildi. Millət vəkil Emil Camalovun təklifi nəzərə alınmaqla (maddə 2.2 – Seçici siyahıları Komissiya tərəfindən tərtib olunur və təsdiqlənir - çıxarılsın) Qaydaların qəbul olunması səsverməyə çıxarıldı. Qaydalar **32 səs lehinə** və **1 səs**

**əleyhinə** olmaqla qəbul olundu. **33 səs lehinə** və **1 səs əeyhinə** olmaqla qabul olundu.

Cari məsələlərin müzakirəsinə keçməzdən öncə millət vəkili Namizəd səfərovun həbsi ilə bağlı Bəyannamə səsləndi. O cümlədəm, ötən gün siyasi fəal Elbəyi Kərimlinin həbsxanada sui-qəsd etməsi barədə xəbəri millət vəkillərinin diqqətinə çatdırıldı.

**3-cü məsələ:**

Cari məsələlər barədə çıxışlar.

Millət vəkillərindən Sevil Muradova, Sədaqət Paşayeva, Təranə Səfərsoy, Rövşən Qəmbər, Zirəddin Abdullayev, Aslan Mehdiyev və o cümlədən SK-nin üzvü Fikrət Qəhrəmanov ölkədəki ictimai-siyasi vəziyyət və gözləntilər barədə çıxış etdilər. Çıxış zamanı millət vəkili N.Səfərovun qanunsuz həbsi və siyasi fəal E.Kərimovun ölüm xəbərinə də münasibətlər bildirildi.

Bəyannamə və müraciətlər nəzərə alınmaqla iclas 3 saat davam etdi.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra iclas bağlandı.

Sədr: Cavanşir Xanlarov

Katib: Kəmalə Mehtiyeva (SK-nın üzvü)